V BÖLMƏ.
BEYNƏLXALQ MÜNASİBƏTLƏR, XARİCİ TİCARƏT VƏ REGİONLARIN İNKİŞAF MƏSƏLƏLƏRİ

UOT: 338

Maqsud Azad oğlu QULİYEV
doktorant, Azərbaycan Kooperasiya Universiteti
E-mail: maqsud226@mail.ru
10.30546/1.72.2024.17

TÜRKMƏNİSTAN RESPUBLİKASININ ENERJİ SİYASƏTİ: İTİRİLMİŞ FÜRSƏTLƏR VƏ GƏLƏCƏK PERSPEKTİV

Xülasə

Tədqiqatın məqsədi – Türkmənistan Respublikasının karbohidrogen resursları sahəsində atdığı addımlar və həyata keçirdiyi layihələr, enerji ixracının diversifikasiyası istiqamətində mümkün yolları təhlil etməkdir.

Tədqiqatın metodologiyası – müqayisə, statistik təhlil, proqnozlaşdırma və hipotez analiz üsullarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiqat mətninin tətbiqi əhəmiyyəti Türkmənistanın enerji resursları üzərində dərin təhlil aparmaq və mümkün ssennarilərdə əldə edə biləcəyi gəlirləri təhlil etməkdir.

Tədqiqatın nəticələri – Türkmənistanın keçmiş və hazırkı enerji istehsal həcmi araşdırılmış, mövcud layihələrlə yaxın gələcəkdə əldə edəcəyi gəlir öyrənilmiş və enerji ixracı yönündə potensial marşrut müəyyən edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Türkmənistan dövlətinin enerji və iqtisadi sahədə atmalı olduğu addımlar təklif edilmişdir.

Açar sözlər: karbohidrogen, təbii qaz, enerji, Trans-Xəzər, ÜDM, türk dövlətləri.

Giriş

1991-ci ilin 27 sentyabrında müstəqilliyini əldə edən Türkmənistan təbii qaz resurslarının böyüklüyünə görə türkdilli dövlətlər arasında I, dünya üzrə isə IV yerdədir. Enerjiyə tələbatın artması ilə inkişaf edən dünya hazırda enerji resursları üzrə, enerjidən siyasi məqsədlər naminə istifadənin əleyhinə çağırışlar etməkdədir. Təbii qazla zəngin Türkmənistan da iri enerji bazarı olan Avropa üçün bu xüsusda tərəfdaş ola bilər. Ona görə Türkmənistan dövlətinin enerji resurslarının öyrənilməsi vacib əhəmiyyət daşıyır.

Türkmənistanın enerji resursları

Təbii qaz resursları nöqteyi-nəzərindən Türkmənistan dünyada Rusiya, Qətər və İrandan sonra IV yerdə qərarlaşmışdır. 2020-ci ildə təsdiqlənmiş təbii qaz ehtiyatı 13.6 trilyon m^3, neft ehtiyatı isə 0.6 milyard bareldir [3, 4]. Türk dövlətləri arasında ən iri qaz resursuna və istehsalına sahibdir. Türkmənistanın resurslarının əksəriyyəti qurudadır və Xəzər regionu ölkələri arasında müqayisə üçün götürsək Xəzər dənizində yerləşən ehtiyatlarına görə Azərbaycandan sonra II yerdədir [3, 11]. Təsdiqlənmiş ehtiyatlara əsasən Türkmənistan dünya üzrə təbii qaz rezervlərinin 7.2%-ni özündə cəmləşdirmişdir. Türkmənistanın qaz ehtiyatları ölkənin istehlak dinamikası nəzərə alınmaqla, hətta maksimum 50-60 milyard m^3-dən hesablansa əsrlərlə özünü təmin etməsinə kifayətdir. İllik qaz istehlakı 500 milyard m^3 olan bütün Avropa qitəsini 20 il tam qazla təmin edə bilər.

Türkmənistan özü ilə bərabər türk dünyası dövlətləri – Türkiyə, Azərbaycan, Şimali Kipr Türk Cümhuriyyəti, Qazaxıstan, Özbəkistan və Qırğızıstan da daxil 7 dövlətin ümumi 200 milyard m^3-ə yaxın qaz tələbatını 50-60 il təkbaşına təmin etmək iqtidarındadır.

Ölkənin karbohidrogen resurslarına tarixi-statistik aspektdən yanaşma cədvəl 1-də göstərilmişdir. Türkmənistanda neft istehsalı statistikası XIX əsrin 70-ci illərindən başlayır. Məlum statistika 600 ton neft istehsal edildiyini, 1913-cü ildə 131 min tona çatdığını göstərir. XX əsrin 20-ci illərinin ortasında Türkmənistanın sovetləşdirilməsindən sonra da neft istehsalı həcmi artır. II Dünya müharibəsi illərində milyonlarla ton Azərbaycan nefti hasil olunduğu vaxt əlçatan statistikaya görə 1945-ci ildə Türkmənistanda hələ bu rəqəm 629 min ton olmuşdur.

Cədvəl 1.

Türkmənistanda neft və qaz istehsalı

Neft istehsalı				Qaz hasilatı	
İllər	**Ton**	**İllər**	**Mln ton**	**İllər**	**Kubmetr**
1873	600	**1966**	10.672	**1940**	9.2 mln
1895	30.000	**1973**	16	**1968**	1209.0
1910	153.000	**1985**	6.8	**1970**	11.7 mlrd
1911	220.000	**1991**	5.4	**1988**	83.6 mlrd
1913	131.000	**2000**	7.1	**1998**	11.7 mlrd
1925	6000	**2010**	10.4	**2008**	69.1 mlrd
1928	8000	**2015**	12.7	**2015**	65.9 mlrd
1945	629000	**2021**	12	**2021**	83.77 mlrd
1950	2.021 mln	**2022**	11.6	**2022**	82.3 mlrd

Mənbə: [2, 3, 4, 6]

Cədvəl 1-ə əsasən ən iri neft hasilatı 1973-cü ildə 16 milyon tonla qeydə alınmışdır. Sovetlərin dağılmasına doğru olan müddət ərzində 1985-1991-ci illərdə artıq neft istehsalı enmişdir və 1991-ci ildə 5.4 milyon tona düşmüşdür. Müstəqilliyini əldə etdikdən sonra neftin ən iri istehsal həcmi 2015-ci ildə - 12.7 milyon ton, 2022-ci ildə bu göstərici 11.6 milyon tona çatmışdır.

Təbii qazın istehsal statistikası 1940-ci ildən start verir və 1968-ci ildə 1-1.2 milyard kubmetr qaz istehsalı 1970-ci ildən 10 milyardın üzərinə qalxmışdır – 11.7 milyard kubmetr. Qeyd edək ki, Türkmənistanda qaz hasilatının ciddi artımı sovet dönəmində digər respublikaların təminatı məqəsədilə həyata keçirilirdi və Türkmənistan özü 10-11 milyard m^3 qaz istehlak edirdi. 1988-ci ildə isə rekord həcmdə - 83.6 milyard m^3 qaz istehsalına nail olunmuşdur. Lakin sovetlərin süqutu, müstəqilliyin ilk illərində istehsal həcmində enmələr baş verdi və Türkmənistanda 1998-ci ildə 11.7 milyard m^3 qaz istehsal olunmuşdur.

Türkmənistanın qaz ixracı

Türkmənistanın qaz ixracının I mərhələsində (1992-1996) sabit istehsal, II mərhələdə Rusiyaya qaz ixacının dayanması (1997-1998), üçüncü mərhələdə az da olsa qaz ixracı davam etdirilir və bu dövrdə Türkmənistandan İrana qaz kəməri çəkilir (1998-2008). Sonuncu mərhələ (2009-cu ildən sonra) isə Çinlə qaz ixracı anlaşmasının imzalanması ilə başlamışdır [5]. Bu mərhələdə Türkmənistan 2021-ci ildə 83.7 milyard m^3 qaz hasilatı ilə yeni rekorda imza atmışdır. Türkmənistan qaz bazarlarına diqqət yetirəndə qeyd etməliyik ki, 2008-ci ilədək ən böyük qaz ixracı Rusiyaya edilirdi (40 milyard m^3-in üzərində). 2009-cu ildə Rusiya qazına Avropada tələbatın azalması və Türkmənistanla Rusiya arasında qiymət üzərində problemlər nəticədə Rusiyanın Türkmənistandan qaz alışının azaldılması ilə nəticələndi. Çünki Rusiyanın Gazprom şirkəti 1000 m^3 türkmən qazını 65-100 ABŞ dollarından alaraq Avropada 260 ABŞ dollarına satırdı. Ona görə 2008-ci ilin iyulunda Türkmənistan və Rusiya ikitərəfli qaz əlaqələrinin daha da inkişafına yönəlmiş mühüm saziş imzaladılar. Bu saziş Rusiya üçün türkmən qazının qiymətini təxminən 1000 m^3 üçün 150 dollardan təxminən 225 dollara qaldırdı və texniki yardım məsələlərini əhatə edirdi. Bütün bunlara

baxmayaraq qaz ixrac həcmi əvvəlki həcmə çatmadı. Türkmənistanın qaz ixrac qiymətləri 1000 m^3 üzrə 2006-2007-ci illərdə 100, 2008-ci ildə 150, 2009-cu ildə 225 ABŞ dolları təşkil etmiş və 2010-cu ildən 240 ABŞ dollarında sabitlənmişdir [11]. 2016-cı ildən isə Gazprom Türkmənistandan qaz alışını tamamilə dayandırmışdır. Qiymət üzərində tərəflərin razılığa gələ bilməməsi 2016-2019-cu illərdə qaz ticarətini sıfıra endirmişdir. Ancaq 2019-cu ildə Rusiya və Türkmənistan arasında 5 illik dövrü əhatələyən müqavilə imzalanmışdır. Bu müqavilədə isə illik həcm 5 milyard m^3 göstərilmişdir. 2022-ci ilədək son illərin satış qiymətləri açıqlanmamışdır.

İxrac coğrafiyasını genişləndirməyi məqsəd seçən Türkmənistan öz təbii qazının Çinə ixracı üçün Mərkəzi Asiya-Çin (Central Asia-China-CAC) kəmərinin tikintisi barədə Çinlə razılığa gəlir. 2007-ci ildə tikintisinə başlanan bu kəmər Özbəkistan və Qazaxıstandan keçməklə Çinə uzanır və uzunluğu 1833 kilometrdir. Çinin CNPC şirkətinin bu üç türk dövlətinin dövlət neft şirkətləri və Storytransgaz şirkətinin iştirakı ilə bu layihənin birinci A xətti 2009-cu ildə tamamlanır. B xətti 2010, C xətti isə 2012-ci ildə tikilib başa çatdırılmışdır. 3 xətdən ibarət Mərkəzi Asiya-Çin kəmərinin ötürmə gücü 55 milyard kubmetrdir. 4-cü xətt hesab olunan D xəttinin 2014-cü ildə inşasına başlanmışdır [1]. Qeyd edək ki, Mərkəzi Asiya-Çin kəməri ilə təkcə Türkmənistan deyil, Özbəkistan və Qazaxıstan da Çinə qaz ixrac etməkdədir (bax: şəkil 1).



Şəkil 1. Türkmənistanın qaz kəməri layihələri. [10]

Yeni dördüncü xətt ilə birlikdə Mərkəzi Asiyada yerləşən türk dövlətlərinin Çinə qaz ixracı 85 milyard kubmetrə çatacaqdır. D xətti öz sələflərindən fərqli olaraq Özbəkistan, Tacikistan və Qırğızıstanın ərazisindən keçir və müəyyən maliyyə problemlərinə görə inşası hələ də davam edir. Bu layihələrin icra olunmasında Çin Türkmənistana 3 milyard, Qazaxıstana 10 milyard ABŞ dolları kredit vermişdir.


Şəkil 1-də Gazprom nəzarətində olan Mərkəzi Asiya – Mərkəz (MAM) kəməri də göstərilmişdir. Bu kəmərlə Rusiyaya qaz ixracı həyata keçirilir. Şəkil 1-də göstərilən və hazırda tikintisi davam edən kəmər TAPİ Türkmənistan, Əfqanıstan, Pakistan və Hindistan arasında qaz ixracını həyata keçirəcəkdir. Bu kəmərlə maksimum 33 milyard kubmetr qaz ixracı mümkün olacaqdır.

Türkmən qazı üçün itirilmiş fürsətlər

Türkmənistandan Azərbaycana Xəzər dənizinin dibi ilə Trans-Xəzər boru kəmərinin çəkilməsinin strateji əhəmiyyəti ondan ibarətdir ki, türkmən qazını Avropaya çıxarmaq və daha böyük

bazarlarda daha çox gəlir əldə etmək mümkün olacaqdır. Azərbaycan öz tərəfdaşları ilə birgə böyük layihə həyata keçirmiş və öz qazını Avropa bazarlarına çıxarmağa müvəffəq olmuşdur. Cənub Qaz Dəhlizi layihəsinin 2009-cu ildə Praqada keçirilən iclasında Mərkəzi Asiya türk dövlətləri də yer almışdılar. Lakin iclasın sonunda yekun sənədə yalnız Azərbaycan imza atmış və bu nəhəng layihənin reallaşmasında tərəf olmuşdur. Belə bir tarixi fürsətdə Mərkəzi Asiyada yerləşən türk dövlətləri, o cümlədən Türkmənistan imza atsaydı bu gün iri qaz bazarına çıxış əldə etmiş olacaqdı. Xüsusilə qeyd etmək lazımdır ki, Avropaya qaz ixrac qiymətləri 600-800 ABŞ dolları, Asiya bazarında isə Türkmənistanın Rusiyaya qaz ixrac qiymətləri ən iri ixrac həyata keçirdiyi Çin bazarına 1000 kubmetri 200-300 ABŞ dollarına satılır.

Türkmən qazının Avropaya marşrutu üçün bir vaxtlar Bəyaz Axın (White Stream) layihəsi hazırlanmışdır (bax: şəkil 2). Trans-Xəzərlə qaz Azərbaycana, oradan Cənubi Qafqaz boru kəməri ilə Gürcüstana və Qara dənizin dibi ilə Bəyaz Axın kəmərinin çəkilişi nəzərdə tutulurdu. Bu kəmər Rumıniya, Macarıstan, Slovakiya, Polşa və Litvanın enerji təchizatına xidmət edəcəkdi.



Şəkil 2. Bəyaz Axın (White Stream) və Trans-Xəzər layihəsi. [7]

Lakin baş verən geosiyasi problemlərə görə türkmən qazının Avropaya çıxarılması hələ də təklif mərhələsində qalmışdır. Müqayisə üçün göstərək ki, həcmi 30 milyard m^3 nəzərdən keçirilən Trans-Xəzər layihəsi Rusiyanın Şimal Axını 2 adlı hər biri 27 milyard m^3 olan iki kəmərdən ibarət layihəsində bir kəmərlə mübarizə aparmaq əzmindədir.

Şəkil 2-də göstərilən Cənubi Qafqaz boru kəməri, TANAP və TAP layihələri ilə Azərbaycan qazı Avropaya çatdırılır. Nəzərə alanda ki, artıq Avropa maliyyə institutları karbohidrogen layihələrə investisiya yatırmırlar, o zaman Türkmənistanın öz qaz ehtiyatlarını Qərbə ixrac üçün bütün tərəflərlə dinamik danışıqlar aparması zərurəti ortaya çıxır. Türkmənistanın Avropa qaz bazarından əldə edə biləcəyi gəlir üçün 30 milyard m^3 qaz ixracını nəzərdə tutsaq və Avropa bazarında qaz satış qiymətlərini 1000 m^3 üçün 700 ABŞ dollarından hesablasaq burada gəlir 21 milyard ABŞ dolları təşkil edəcəkdir. Eyni həcmdə qazın 200-300 ABŞ dollarından Asiyada satışından Türkmənistan 6-9 milyard ABŞ dolları gəlir əldə edir. 2008-ci ildə Türkmənistanla Avropa arasında ilkin anlaşma memorandumu imzalanmışdır. Bu o deməkdir ki, layihə üçün ilkin baza mövcuddur.

Azərbaycan artıq Cənub Qaz Dəhlizi ilə sadəcə öz təbii qazının maksimal həcmdə ixracına dair öhdəlik götürdüyündən, təkcə Trans-Xəzər kəmərinin tikintisi deyil, bu qazın Azərbaycandan Avropaya çatdırılmasına dair marşrut formalaşdırılmalıdır.

Avropa bazarlarına türkmən qazının çıxarılması üçün ilkin həcm olaraq 30 milyard kubmetr qaz düşünülməkdədir.

Türkmənistanın Avropa qaz bazarından əldə edə biləcəyi gəliri aşağıdakı formula ilə hesablamaq mümkündür. Bu formula qaz həcmi, gəlir və tariflə əlaqəlidir [11, s.102]:

$$T= R/V \quad (1)$$

Burada,

T – qaz tarifini (tariff);

R – gəliri (revenue);

V – ixrac olunan qazın həcmini xarakterizə edir (volume).

30 milyard kubmetr qaz ixracını nəzərdə tutsaq və Avropa bazarında qaz satış qiymətlərini 1000 kubmetr üçün 700 ABŞ dollarından hesablasaq burada R yəni gəlir 21 milyard ABŞ dolları təşkil edəcəkdir. Eyni həcmdə qazın 200-300 ABŞ dollarından Asiyada satışından Türkmənistan 6-9 milyard ABŞ dolları gəlir əldə edir.

Türkmənistanın qaz ixracı və Ümumi Daxili Məhsulu

Hazırda Türkmənistan 30 milyard m^3 in üzərində qaz ixracı həyata keçirir və onun ümumi daxili məhsulla birgə daha ətraflı qaz ixrac həcmi cədvəl 2-də göstərilmişdir.

Cədvəl 2.

Türkmənistanın ümumi qaz ixracı və ÜDM-i

	2010	**2013**	**2014**	**2016**	**2020**	**2021**
Qaz ixracı, mlrd m^3	20.9	41.2	45	37.7	32.5	35.2
ÜDM, mlrd ABŞ dolları	22.58	39.2	43.52	36.17	47.35	53.1

Mənbə: *[8, 9]*

Karbohidrogen ixracı Türkmənistanda iqtisadiyyatın inkişafında özül rolunu oynayır. Qaz ixracı isə bütün ixracın 70%-dən çox hissəsini əhatələyir. Cədvəl 2-yə əsasən görünür ki, qaz ixracı ölkənin ÜDM həcminin artıb-azalmasına birbaşa təsir göstərir. 2014-cü ildə Türkmənistanın 45 milyard m^3 qaz ixracı son onilliyin ən yüksək səviyyəsidir və ölkə ÜDM-i həmin zaman 43.52 milyard ABŞ dollarına yüksəlmişdir. Bu durum iqtisadiyyatın neft-qaz sektorundan asılılığını göstərir və karbohidrogen resurslarının qiymətində hər hansı dəyişiklik birbaşa gəlirlərə təsir edir [8]. Dayanıqlı iqtisadiyyat qurulması üçün qeyri neft-qaz sektorunun inkişafı əsas şərtdir. 2016-cı ildə Rusiyanın qaz alışından imtinası ÜDM həcminin 36.17 milyard ABŞ dollarına düşməsinə səbəb oldu və bu illərdə Türkmənistanın milli valyutası dəyər itirməyə məcbur oldu. 2020 və 2021-ci illərdə ÜDM həcmində ciddi artımlar müşahidə edilmişdir və 2005-2021-ci illərdə ən böyük həcm 2021-ci ildə qeydə alınmışdır – 53.1 milyard ABŞ dolları. Milli valyutanın dəyərdən düşməsi, ÜDM həcminin və gəlirlərin azalması qeyri-neft-qaz sektorunun inkişafını Türkmənistan üçün təməl şərt qoyur.

Türkmənistanın perspektiv qaz ixracı gəlirləri

Hazırkı vəziyyətdə Türkmənistanın Mərkəzi Asiya – Çin və TAPI kəmərləri ilə 2030-cu ilədək əldə edə biləcək gəlirlərini proqnozlaşdırsaq o zaman 1000 m^3 üçün qazı 300 ABŞ dollarından götürmək ən optimal variant olacaqdır. Perspektiv dövr üçün hesablanan qaz ixrac gəlirləri cədvəl 3-də əyani şəkildə əks etdirilmişdir.

Cədvəl 3.

Türkmənistanın yaxın gələcəkdə qaz ixracı gəlirləri proqnozu

Kəmərlər	**İxrac qiyməti (1000 m^3) ABŞ dolları ilə**	**İxrac ölkələri**	**İxrac həcmi mlrd m^3**	**Gəlir (mlrd ABŞ dolları)**
M.Asiya-Çin	300	Çin	65	19.5
TAPI	300	Əfqanıstan, Pakistan və Hindistan	33	9.9

Mənbə: *müəllif tərəfindən proqnozlaşdırılmışdır.*

Aparılan hesablamalara əsasən cədvəl 3 göstərir ki, Türkmənistanın Mərkəzi Asiya – Çin və TAPI kəmərləri vasitəsilə ümumi qaz ixracı 99 milyard m^3-ə çatacaqdır. Bu qazın 65 milyard m^3-i Çin, 33 milyard m^3-i isə Əfqanıstan, Pakistan və Hindistana ixracı nəzərdə tutulur.

Hər iki ixrac coğrafiyası üçün 1000 m^3 qaz 300 ABŞ dollarından hesablanmışdır və ümumi gəlir 29.4 milyard ABŞ dolları olacaqdır. Hipotetik olaraq düşünsək 100 milyard m^3 qazı əgər Türkmənistan Avropa bazarlarına çıxarmaq imkanına sahib olsaydı əldə edəcəyi gəlir 70-80 milyard ABŞ dollarına bərabər olacaqdı. Türk dövlətləri arasında ən iri qaz istehlakçılarından olan Türkiyə türkmən qazının alıcıları sırasında yer alacaqdır və bu, türk dövlətlərinin birliyinə, əlaqələrinə yeni güc qata bilər. Aparılan təhillər, müqayisələr və göstərilən proqnozlara əsasən Türkmənistanın Trans-Xəzər layihəsi üzərində çalışmalara başlaması və tərəfdaşlarla yeni dinamizm formalaşdırması son dərəcə vacibdir.

Nəticə

Tədqiqat işi Türkmənistanın enerji resurslarının və siyasətinin təhlilinə, keçmişdə formalaşdırılmış layihələrə və hipotez kimi qarşı qoyularaq türkmən qazının Qərb marşrutunda dövlət üçün nə qədər gəlir qazandıracağına həsr olunumuşdur. Əldə edilən nəticə odur ki, təbii qazla zəngin Türkmənistan son dərəcə qətiyyətli şəkildə Türkiyə və Avropa bazarlarına qaz ixracı marşurutu formalaşdırmalı, təbii qazın ixrac coğrafiyasını genişləndirməli və bununla paralel ölkədə dayanıqlı iqtisadi inkişafı təmin etmək üçün iqtisadiyyatın qeyri-neft-qaz sektorunu inkişaf etdirməlidir. Xüsusən qaz ixracından gələcəkdə əldə olunacaq gəlirlərin bu sahəyə yönəldilməsi geosiyasi diskursdan daim dəyişən dünya nizamı üzrə ölkənin uzunmüddətli inkişafında önəmli rola sahib olacaqdır. Bu xüsusda ən optimal layihə Türkmənistanın Azərbaycan üzərindən Avropaya qaz marşrutu olacaqdır.

ƏDƏBİYYAT

1. Aizhu, C. China prioritising Turkmenistan over Russia in next big pipeline project / C.Aizhu, M.Gurt. [Electronic resource] / Reuters. – May 24, 2023. URL: https://www.reuters.com/markets/commodities/china-prioritising-turkmenistan-over-russia-next-big-pipeline-project-2023-05-24/
2. Begenjov, B. Türkmenistan'ın enerji politikası: / yüksek lisans tezi. / İstanbul, 2018. – 226 s.
3. bp Statistical Review of World Energy 1965-2022.
4. bp Statistical Review of World Energy 2022.- 58p
5. Jumayev, İ. Foreign trade of Turkmenistan: Trends, Problems and Prospects. Bishkek, "University of Asia" press, 2012. – 37 pages
6. Statistical review of World Energy 2023 / Energy institute. – 64p
7. Trans-Caspian Pipeline and White Stream Projects / Georgian Oil and Gas Corporation. URL: https://www.gogc.ge/en/project/trans-caspian-pipeline-and-white-stream-projects/33
8. Turkmenistan GDP / World Bank. URL: https://data.worldbank.org/country/turkmenistan
9. Turkmenistan natural gas: Exports 1996-2022: [Electronic resource] / CEIC data. URL: https://www.ceicdata.com/en/indicator/turkmenistan/natural-gas-exports
10. Wright, T. India, Pakistan Agree on Gas Pipeline / T.Wright, S. Choudhury. [Electronic resource] / Wall Street Journal. – May 22, 2012. URL: https://www.wsj.com/articles/SB10001424052702304791704577419952213969924
11. Коломейцева А.А. Проблемы и перспективы взаимоотношений России и стран СНГ на рынке газа. – Москва: Издательский дом "Научная Библиотека", - 2017. – 246 с.

Магсуд Азад оглы ГУЛИЕВ
докторант Азербайджанского Университета Кооперации
E-mail: maqsud226@mail.ru

Энергетическая политика Республики Туркменистан: утерянные возможности и перспектива на будущее

Резюме

Цель исследования. Проанализировать шаги, предпринимаемые Республикой Туркменистан в области углеводородных ресурсов и реализуемые проекты, возможные пути в направлении диверсификации экспорта энергоресурсов.

Методология исследования. Использовались методы сравнения, статистического анализа, прогнозирования и анализа гипотез.

Прикладное значение исследования. Прикладное значение текста исследования заключается в проведении углубленного анализа энергетических ресурсов Туркменистана и анализа потенциальных доходов при возможных сценариях развития событий.

Результаты исследования. Исследованы прошлые и настоящие объемы производства и потребления энергии Туркменистана, изучен доход, который будет получен в ближайшем будущем от существующих проектов, а также определен потенциальный маршрут в направлении экспорта энергоносителей.

Оригинальность и научная новизна исследований. Предложены шаги, которые следует предпринять государству Туркменистан в энергетической и экономической сферах.

Ключевые слова: углеводороды, природный газ, энергетика, Закаспий, ВВП, турецкие государства.

Magsud Azad GULIYEV
PhD student, Azerbaijan University of Cooperation
E-mail: maqsud226@mail.ru

Energy policy of the Republic of Turkmenistan: lost opportunities and future perspective

Summary

The purpose of the study. To analyze the steps taken by the Republic of Turkmenistan in the field of hydrocarbon resources and the projects implemented, the possible ways in the direction of diversification of energy exports.

Research methodology. Comparison, statistical analysis, prediction and hypothesis analysis methods were used.

Applied significance of the study. The applied importance of the research text is to conduct an in-depth analysis of Turkmenistan's energy resources and analyze the potential income in possible scenarios.

Results of the study. The past and present energy production and consumption volumes of Turkmenistan were investigated, the income to be obtained in the near future with existing projects was studied, and a potential route in the direction of energy export was determined.

Originality and scientific innovation of research. The steps that the state of Turkmenistan should take in the energy and economic spheres have been suggested.

Key words: hydrocarbon, natural gas, energy, Trans-Caspian, GDP, Turkish states.